# Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialının «Əlavə təhsil» sahəsi əməkdaşlarının Qəbələ səfəri

## Qəbələ rayonunun yaradıcı müəllimləri

**(Əvvəli 27 may 2013-cü il tarixli sayımızda).**

Növbəti müşahidəmiz III sinifdə **Azərbaycan dili** dərsində oldu. Müşahidə apardığımız müəllim də əxlaqi-mənəvi dünyanın sirli-sehrli bir insanı kimi qibtə və maraq obyektimizə çevrilmişdi. Uşaqlar onun nitqinə heyranlıqla diqqət yetirirdilər. Ondan nə isə götürməyə çalışırdılar. Müəllimin güclü pedaqoji ustalığı göz qabağınada idi. O, yaxşı bilirdi ki, kiçik yaşlı uşaqlar müəllimin şəxsi keyfiyyətlərini ideallaşdırıb, onu təqlid etməyə çalışırlar. Sevdikləri müəllim onların gözündə ucalır, müqəddəsləşir. Ona ən ülvi, təmiz və dərin hörmət bəsləyirlər. Hiss olunurdu ki, o bunu bacarırdı.

Danılmaz faktdır ki, bu gün insanlar zamanın məlumat şırnağında yaşayırlar. Hər an, hər dəqiqə həndəsi silsilə ilə artan fakt və hadisələr məkanında doğulub-böyüyən uşaqların tələbatları da artır. Çünki onlar çox öyrənməyi bacarır və geniş məlumatlara malik olurlar. Belə bir zamanda müəllimin məsuliyyət yükü daha da artır. Müəllimin peşəkarlığı, öz işinin ustası olması onun həm pedaqoji, həm də valideyn kollektivi arasında nüfuz qazanmasına səbəb olur.

İsmayılova Fürmayə 1963-cü ildə anadan olub. Ağdaş Pedaqoji Texnikumunu bitirib, ibtidai sinif müəllimliyi ixtisasna yiyələnmişdir. 1983-cü ildən bu sahədə fəaliyyət göstərir. 100-dən çox yetirmələri müxtəlif peşə sahələrində çalışır. Bir çox təltifləri, sertifikatları var.

Dərsə **«Şıltaq günəş»** mahnısı ilə başlandı. Müəllim motivasiyanı tapmacalarla yaratdı: O, hansı quşdur ki, gündüz yatır, gecə isə ova çıxır. Uşaqlardan iki nəfər «yarasa»—deyə səsləndi. Müəllim: «Bəs niyə o gecələr oyaq olur?» və s. suallar verdi və şagirdlərin köməyi ilə bu sualları açıqlamağa çalışdı. Sonra o, BİBO strategiyasına əl atdı. Yarasa haqqında şagirdlərin bildiklərini soruşub **«bilirəm»** sütununu doldurdu. II—**«İstəyirəm biləm»** sütununda iri bir sual işarəsi yerləşdirilmişdi? Sonra, hazırladığı mətnin hissələrini qruplara payladı. Qruplar mətnlə tanış olduqdan sonra BİBO-nun III xanasında aydın olmayan cavabları tapıb, müəllimin köməyi ilə doldurdular.

Dərs interaktiv qurulmuşdu. Müəllim çalışırdı ki, şagirdlərin daxili aləminə nüfüz etsin, onları dərs prosesinə qoşub, tərəf müqabilə çevirsin. Onun peşəkarlığında aktyorluq elementləri, qeyri-adilik, emosianal ifadə tərzi var idi. Şagirdlərini tədqiqatçılığa, yaradıcılığa araşdırmaya yönəldirdi. Sonra o, krosvorddan istifadə etdi. Krosvordun şərtlərini bir-bir açdıqca sözün bir hərfi tapılırdı. Nəhayət, onlar **«Yarasa»** sözünü tam açıqladılar. Sonra qruplar mətn üzərində sait və samit səsləri tapıb, hansı sözlərdə **«ahəng qanunu»nun** pozulduğunu tapıb açıqladılar. Dərs tədqiqat obyektinə çevrilmişdi. Şagirdlər özləri qiymətləndirmədə iştirak etdilər və demokratik qiymətləndirmə aparıldı.



Biz hələ vaxtımızın imkan verdiyini nəzərə alıb qəsəbə və ya kənd məktəblərindən birinə baş çəkmək istyədiyimizi bildirəndə rayon təhsil şöbəsinin metodkabinet müdiri Arifə xanım bizə istədiyimiz kəndi seçməyimizi təklif etdi. Vəndam qəsəbəsini seçdik. Biz kurikulumla hazırlanmış dərsliklərlə müəllimlərin necə işlədiklərini öyrənmək üçün yenə V sinfi seçdik. Bəxtimizə yenə ingilis dili dərsi düşdü. Arifə xanım dedi: Hacıyeva Mədinə Adil qızı institutu fərqlənmə diplomu ilə bitirib. Vəndam qəsəbəsində ziyalı ailəsində doğulub. 2 saylı Vəndam qəsəbə tam orta məktəbini bitirib həmin il Azərbaycan Dillər Universitetinin ingilis dili üzrə tərcümə fakultəsinə daxil olub. 2000-ci ildən 1 saylı Vəndam qəsəbə tam orta məktəbində çalışır. Çoxlu sayda yetişdirməsi var. Daim öz üərində çalışır. İlin müəllimi müsabiqəsinin iştirakçısıdır. Hətta o, abituriyentlər üçün «İngilis dilinin praktik qrammatikası» adlı dərsliyin müəllifidir. Onun şagirdləri ingilis dilindən respublika olimpiadasının qalibidirlər. Novatordur. Daim alternatıv dərsliklərin üzərində və İKT-nin tətbiqinə çalışır.

Həmin gün müxtəlif məktəblərdə eyni sinifdə iki indilis dili müəlliminin eyni mövzü ətrafında pedaqoji ustalıqlarını müşahidə etdik. Çox qəribə bir təsadüf idi. Eyni fənn, eyni mövzu, müxtəlif yanaşma, müxtəlif yaradıcılıq, eyni məqsəd. Araşdırma üçün bizə fürsət düşmüşdü. Xöşbəxtlikdən, hər üç müəllim yaxşı bilirdi ki, müasir dövr insan fəaliyyətinin bütün sahələrində sürətli dəyişikliklərin baş verməsi ilə səciyyələnir. Hansı sahə olur-olsun, əgər mütəxəssis öz işini bilirsə, bu sahədəki, yeniliklərdən xəbərdardırsa, onların mahiyyətini başa düşürsə, ona tapşırılan sahəni bacarıqla idarə edir, uğur qazana bilir. Müasir müəllim klassik təcrübəyə söykənməklə, qabaqcıl təcrübələrdən istifadə etməklə yanaşı, həm də zamanın müasirlik aynasında özünü görə bilməli, işini düzgün istiqamətləndirməyi bacarmalıdır.

Mədinə müəllim də işini düzgün istiqamətləndirmişdi. Mövzu yenə «Ev heyvanları» haqqında məlumat idi. İKT-nin imkanlarından istifadə edərək gözəl slayd qurmuşdu. Kiçik yaşlı uşaqlar emosional olduqlarından, kadrlar oynaq idi və heyvanları öz səsləri ilə seçmişdi.Verilmiş sözləri tələffüs etdikdən, açıqladıqdan sonra, çıxarılmış səslərə əsasən **anonim** sözlərin altına hər heyvanın adı yazılırdı. Sonra müəllim hər heyvanın insan üçün olan faydasını aydınlaşdırmağa çalışdı. Bu işi qruplara həvalə etdi. Verilmiş tapşırıqlar üzərində şagirdlər qruplarda işlədilər. Vaxt bitən kimi liderlər işləri təqdim etdilər. Cavablar bir-birindən maraqlı idi. Müəllim qiymətləndirmə aparmaq məqsədilə yenə qruplara testlər təqdim etdi. Nəticədə qruplar birbirini qiymətləndirdilər. Sonra şagirdlərin ifasında gözəl bir səhnəciyə tamaşa etdik. Səhnəcik mövzuya tam uyğun olub, şagirdlərin dil vərdişlərini, söz ehtiyatlarını, nitq qabiliyyətlərini, ən ümdəsi, aktyorluq qabiliyyətlərini nümayiş etdirirdi. Səhnəcikdə uşaqlar ev heyvanlarının səs və hərəkətlərini çox düzgün və məharətlə ifa edirdilər. Səhnəcik böyük tərbiyəvi əhəmiyyət daşıyırdı. Sonra müəllim uşaqlardan hansı heyvana bənzəmək istədiklərini soruşdu. Uşaqlar şir, pələng, qartal, maral, ceyran, dovşan olmaq istədilər. Bu, sübut etdi ki, onlar məğrurdurlar, öz gücləri, gözəllikləri ilə seçilmək istəyirlər. Müəlim hər uşağa bənzəmək istədiyi heyvanın şəklini bağışladı. Dərslərdə inteqrasiyaya yer verilirdi: biologiya, musiqi, ədəbiyyat və s.

Bəli! Bu gün sübüt olundu ki, cəmiyyətdə yaranmış olan müəllim obrazı humanizmin, insanpərvərliyin təntənəsini yaradan, əməllərinin nəticəsindən həzz alan və gənclik üçün daim nümunə olan bir sənət adamının ifadəsidir. Müasir təhsil «təhsil, inkişaf və tərbiyə» triadasına söykənir. Dərs həmişə məktəbin episentri olub. «Müasir dərs» isə tamamilə yeni, köklü konsepsiyadır. Bu konsepsiyanın formalaşması yeni pedaqoji təfəkkürün bərqərar olmasında həlledici əhəmiyyətə mailkdir.

Arifə xanım hər iki məktəb və onların direktorları haqqında danışdı. Bildirdi ki, hər iki məktəb cəmiyyətimizə yüzlərlə ziyalı bəxş edib. Zəngin keçmişə və pedaqoji nailiyyətlərə malikdir. Məktəblərin pedaqoji kollektivi də çox səmimi və işgüzardır. Yetirmələri olimpiadalarda layiqli yer qazanır və «İlin məktəbi» müsabiqəsinin iştirakçısıdır. O yerdə ki, direktor yerindədir, təhsili, məktəbi, onların inkişaf meyillərini dərk edə bilir, təşəbbüskardır, yeniliksevəndir, idarəetmə məharəti var, orada işlərin normal gedəcəyi, uğur qazanılması şübhəsizdir.

Biz də, AMİ-nin Şəki Filialının ixtisasartırma sahəsinin mütəxəssisləri, filialımızın fəaliyyət dairəsinə daxil olan regionlarda (Oğuz, Qəbələ, Şəki) belə müəllimləri soraqlayıb tapır və işıqlandırırıq ki, pedaqoji arenada rəqabət güclənsin. Bu yolla həm də ixtisasartırmaya ehtiyacı olanlartı müəyyənləşdirib ixtisasartırmaya cəlb edirik.

**X. HƏMİDOVA,**
**«Əlavə təhsil» sahəsi üzrə direktor müavini, baş müəllim.**
**Ə. ƏKBƏROVA,**
**«Əlavə təhsilə metodik xidmət» kabinetinin müdiri, baş müəllim.**

---

Qızıl Aypara Cəmiyyəti Qəbələ Rayon Bölməsi Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar şəhərin 3 saylı uşaq bağçasında xeyriyyə tədbir keçirmişdir. Tədbiri giriş sözü ilə bağçanın müdiri Natəvan Əfəndiyeva açmış, sonra çıxış üçün sözü Qızıl Aypara Cəmiyyəti Qəbələ Rayon Bölməsinin sədri Sədaqət Bayramovaya vermişdir.

## 3 saylı bağçada xeyriyyə tədbirləri

S. Bayramova əvvəlcə bağcanın müəllmələrini və uşaqları əziz bayramları münasibətilə təbrik etmiş, onlara sülh, xoşbəxt həyat və əmin-amanlıq arzulamışdır. Sonra o, Qızıl Aypara Cəmiyyətinin yaranma tarixi, hazırkı fəaliyyəti və əhəmiyyəti, dövlətimizin onlara göstərdiyi qayğı, yaşam səviyyəsinin artması üçün görülən tədbirlər haqqında iştirakçılara ətraflı məlumat vermişdir. Bağça uşaqları bayrama aid şerlər söyləmiş, kiçik səhnəciklər nümayiş etdirmişlər.

Cəmiyyyətin Qəbələ Rayon bölməsi adından imkansız ailələrdən olan, habelə valideynlərindən birini itirmiş 22 uşağa dəst paltar və bütövlükdə 75 uşağın hamısına şirniyyat paylanmışdır.

Bağçanın müdiri Natəvan Əfəndiyeva çıxış edərək dövlət qayğısı sayəsində bağçada ərzaq təminatının, onun avadanlıqla və texniki təchizatının yaxşılaşdırılmasından, tərbiyə işlərinin keyfiyyətinin yüksəlməsindən danışmışdır. O, həmçinin görülən işlərə görə dövlət və rayon rəhbərliyinə, xeyriyyə tədbiri üçün rayon qızıl ayrara bölməsinin rəhbərliyinə minnətdarlığını bildirmişdir.

Sonda bağçanın tərbiyəci müəllimlərindən və texniki işçilərindən bir neçə nəfərinə Cəmiyyətə üzvlüyə könüllü qəbul vəsiqələri təqdim olunmuşdur.

***

Bölmə rəhbərliyi daha bir xeyriyyə tədbirini 28 May Respublika Günü ərəfəsində keçirərək, rayonda yaşayan bir qrup imkansız ailələrdə olmuş, onlara maddi yardım və xeyli paltar paylamışdır.

**Firəngiz NOFƏLQIZI,**
**rayon qızıl aypara cəmiyyəti rayon bölməsinin təlimatçısı.**